Xalq qəzeti.- 2023.- 14 sentyabr.- S. 11

**Özbəkistanın paytaxtı Daşkənddə 2023-cü ildə Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi münasibətilə “Ozarbayjonning qadimiy Shusha shahri Turkiy dunyoning madaniy poytaxti” adlı xüsusi poçt markası buraxılıb.**

# Özbəkistanda Şuşa markası




Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və Özbəkistanın müvafiq dövlət qurumlarının dəstəyi nəticəsində ərsəyə gəlmiş “Azərbaycanın qədim Şuşa şəhəri – Türk dünyasının mədəniyyət paytaxtı” adlı poçt markasının Özbəkistan Mərkəzi Poçtu tərəfindən daxili və beynəlxalq dövriyyəyə buraxılması nəzərdə tutulub.

Xüsusi dizaynla hazırlanmış poçt markasının üzərində Şuşa qalası, Azərbaycan bayrağı, Qarabağın tacı olan Şuşanın füsunkar təbiəti, başını duman almış əzəmətli dağları, əslən şuşalı olan Azərbaycanın mədəniyyət, ədəbiyyat və incəsənət xadimləri, milli musiqi alətlərimiz (qaval, tar, kaman), Qarabağın, Şuşanın və qazanılan Zəfərin rəmzi olan “Xarıbülbül” çiçəyi təsvir olunub.

Qeyd edək ki, Daşkənddə və Bakıda təqdimat mərasimlərinin keçiriləcəyi poçt markası hər iki ölkənin dövlət və hökumət nümayəndələrinə, eləcə də muzeylərinə göndəriləcək.

Xatırladaq ki, TÜRKSOY tərəfindən Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə əlaqədar bu il Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi bir neçə layihə həyata keçirib. Bu layihələrə “Şuşa günləri” (Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, iki ölkənin Mədəniyyət nazirlikləri ilə birgə) tədbiri, “Wikipedia”da özbək dilində Şuşa haqqında bölmələrin yaradılması, Özbəkistan KİV nümayəndələrinin Qarabağa – Şuşaya media-turlarının təşkil edilməsi daxil olub. Yaxın zamanda isə bir neçə dildə Şuşaya həsr olunmuş ensiklopedik kitab çap ediləcək.

**Qulu KAZIMOV,**
**XQ-nin xüsusi müxbiri**